Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının ildönümlərinə həsr olunmuş inşa müsabiqəsi artıq 8-ci dəfədir təşkil olunur. Builki inşa yazı müsabiqəsi Azərbaycan Respublikası təhsil nazirinin 26 fevral 2014-cü il tarixli, 229 nömrəli əmrinə müvafiq olaraq keçirilir. Müsabiqənin təşkilatçıları Yeni Azərbaycan Partiyası, Heydər Əliyev Fondu, Təhsil Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Rabitə və Yüksək Texnologiyalar Nazirliyidir.

Respublika mərhələsinin iştirakçıları arasından qaliblər seçilərək I, II, III və həvəsləndirici yerlərə layiq görüləcək. Qaliblərə qiymətli hədiyyələr təqdim olunacaq. Onların inşa yazıları isə kitab şəklində çap ediləcək.

Qeyd edək ki, müsabiqənin rayon (şəhər) mərhələsi mart ayında yekunlaşdırılıb. İnşa müsabiqəsində ölkəmizin bütün bölgələri təmsil olunub. Müsabiqənin rayon (şəhər) mərhələsində 17 min nəfərdən artıq şagird iştirak edib. Respublika mərhələsi iştirakçılarının ümumi sayı 121 nəfərdir. Onlardan 10 nəfəri VIII, 29-u IX, 29-u X, 28-i XI sinif şagirdidir. İlk peşə-ixtisas təhsili müəssisələrini 15 nəfər, orta ixtisas məktəblərini isə 10 nəfər təmsil edir.